# IPRA-nın İqlim Dəyişikliyi barədə Kommunikasiya Təlimatı

Birləşmiş Millətlər Təşkilatının davamlı inkişaf məqsədləri və xüsusilə *“iqlim dəyişikliyi və onun təsirləri ilə mübarizə üçün təcili tədbirlər görmək”* barədə 13 saylı məqsədinə İSTİNAD EDƏRƏK;

İctimaiyyətlə əlaqələr mütəxəssislərinin ünsiyyət bacarıqları vasitəsilə unikal təsir vasitələrinə malik olduqlarını XATIRLADARAQ;

İctimaiyyətlə əlaqələr mütəxəssislərinin təşkilatlar və maraqlı tərəflər arasında əlaqələndirici halqa olduqlarından iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynadıqlarını NƏZƏRƏ ALARAQ;

**İqlim dəyişikliyi ilə bağlı kommunikasiyaların aparılması zamanı ictimaiyyətlə əlaqələr üzrə praktiklər aşağıda qeyd olunanların həyata keçməsini təmin edəcəklər:**

1. IPRA məcəlləsinin ikinci maddəsinə uyğun olaraq
   - iqlimlə bağlı kommunikasiyalarda dürüstlüyü təmin etmək üçün *dürüst və ləyaqətli hərəkət etmək*
   - elmin ictimai arenada başa düşülə bilən kommunikasiyaya çevrilməsi zamanı *dürüst və ləyaqətli hərəkət etmək*

2. IPRA məcəlləsinin üçüncü maddəsinə uyğun olaraq

   - daxili mədəniyyətin inkişaf etdirilməsi yoluyla həmkarların öz narahatlıqlarını çəkinmədən ifadə edə biləcəkləri *dialoq üçün mənəvi şərait yaratmaq;*
   - İqlim dəyişikliyi ilə pozitiv mübarizə hərəkətlərini dəstəkləyən kənar müdafiəçilərlə tərəfdaşlıq etməklə *dialoq üçün mənəvi şərait yaratmaq;*
   - peşəkar və ictimai arenada iqlim təhsilini təşviq etməklə *dialoq üçün mənəvi şərait yaratmaq.*

3. IPRA məcəlləsinin 4-cü maddəsinə uyğun

   - *açıq və şəffaf olaraq* öz təşkilatının emissiyaları və ixtisar yolları haqqında hesabat vermək.

4. IPRA məcəlləsinin 5-ci maddəsinə uyğun

   - görülən işin düşünülmüş şəkildə nəzərdən keçirilməsi yolu ilə *peşəkar münaqişələrin qarşısını almaq;*
   - işin BMT-nin davamlı inkişaf məqsədlərinə uyğun olmasını təmin etməklə *peşəkar münaqişələrin qarşısını almaq;*

- müştərilərə və rəhbərliyə ictimai gözləntilər barədə məsləhət verməklə *peşəkar münaqişələrin qarşısını almaq.*

5. IPRA məcəlləsinin 7-ci maddəsinə uyğun

- İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelə uyğun olaraq elmi əsaslı mənbələrə istinadı təşviq etməklə *həqiqəti və dəqiqliyi təmin etmək;*
- müştəriləri müştərinin mövqeyinə zidd olan mənbələrə istinad etməyə təşviq etməklə *həqiqəti və dəqiqliyi təmin etmək;*
- ictimai arenada qeyri-dəqiq kommunikasiyanı üzə çıxarmaqla *həqiqəti və dəqiqliyi təmin etmək.*

6. IPRA məcəlləsinin 8-ci maddəsinə uyğun

- elmi əsaslı məlumatlara istinad edərək kommunikasiyada "Greenwashing"-in qarşısını almaqla yanlış məlumat yaymamaq.

7. IPRA məcəlləsinin 10-cu maddəsinə uyğun

- tullantılarda əhəmiyyətli dərəcədə payı olan və ya iqlim dəyişikliyini inkar edən təşkilatlar tərəfindən maliyyələşdirilən institutlardan istifadə etməmək yolu ilə *gizli maraqlara xidmət edən təşkilatlardan istifadə etməmək*.

2023-cü ilin yanvarında qəbul edilib.